# Böyük Qələbənin reallıqları dünyada rəğbətlə qarşılanır



***İkinci Qarabağ müharibəsində Azərbaycanın qazandığı tarixi zəfərlə regionda vəziyyət tamamilə dəyişdi. Vətən savaşından əvvəlki dövrdə ölkəmizi Ermənistanın qələbəsi gerçəkliyini qəbul etməyə çağıran bir sıra beynəlxalq təşkilatlar və dövlətlər tərəfindən də bu yeni reallıqla barışmalı oldu.***

Bu fikrin təsdiqi kimi, bir məqamı xatırladaq. Belə ki, vaxtilə ATƏT-in Minsk qrupu həmsədrlərinin ilk bəyanatlarından onların bölgədəki mövcud reallıqlardan tamamilə uzaq olmaları açıq-aydın görünürdü. İkinci Qarabağ müharibəsindən sonra isə əks mövqe nəzərə çarpmağa başladı. Dövlətimizin başçısı çıxışlarının birində bu barədə deyib: “Biz öz konstitusion hüquqlarımız çərçivəsində, BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı çərçivəsində yeni reallıq yaratmışıq və hamı bu reallıqla hesablaşmalıdır. Bu, asan məsələ deyildi… Bu, daimi iş idi. Nəticədə bu gün beynəlxalq təşkilatlar – BMT, Qoşulmama Hərəkatı, ATƏT, Avropa İttifaqı, MDB tərəfindən bu reallıq tamamilə qəbul edilib. Biz bunu həm formal mənada, həm də xalis ünsiyyətdə görürük. Üstəlik, mən beynəlxalq strukturların çoxsaylı rəhbərləri və dövlət başçıları ilə əlaqədə olarkən müşahidə edirəm, indi biz öz haqq işimizə qat-qat artıq dəstək görürük”.

Bu haqlı mövqe, reallıq təsadüfi deyil. Beynəlxalq İkinci Qarabağ müharibəsindən əvvəl olduğu kimi, döyüşlər getdiyi vaxtda da öz konstitusion hüquqları, həmçinin BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı çərçivəsində mübarizə aparıb, öz əbədi-əzəli torpağı uğrunda işğalçıya qarşı vuruşub və yeni reallıq yaradıb. Bu, faktdır və bu həqiqət, necə deyərlər, dünyanın gözü qarşısında baş verib. Bir az əvvəl xatırlatdığımız kimi, beynəlxalq ictimaiyyət, dünya gücləri, eləcə də nüfuzlu beynəlxalq təşkilatlar artıq bu reallıqla hesablaşıblar. Bu, bir tərəfdən Azərbaycanın Vətən müharibəsindəki haqlı mövqeyinin, ədalətli qələbəsinin, digər tərəfdən isə Azərbaycan Prezidentinin yürütdüyü yorulmaz xarici siyasətin məntiqi nəticəsidir.

Bu məsələdə bir həqiqəti də qeyd etməliyik. Beynəlxalq aləmin yeni reallıqları qəbul etməsində daha bir amil – ərazilərimiz işğaldan azad edilləndən dərhal sonra bölgəyə müxtəlif ölkələrdən olan diplomatlar, jurnalistlər və ictimaiyyət nümayəndələrinin səfərləri təşkil edildi. Bununla əsl reallıqlar bir daha təsdiqləndi. Ermənistanın qəsbkar, barbar dövlət olduğu işğal və savaş dövründə törətdiyi vəhşiliklərlə sübuta yetirildi.

Azərbaycan Prezidenti çıxışlarının birində bu acınacaqlı mənzərəni xatırladaraq deyib: “Onlar hamısı şokda idi. Elə biz hamımız da. Orada olan hər birimiz, sadəcə, şok vəziyyətinə düşürdük... Bu da ermənilərin bütün ideoloji konsepsiyasını tamamilə alt-üst edirdi ki, guya onlar sivil xalqdır, qədim xalqdır, barbar müsəlmanların əhatəsində qalıblar, Qafqazda xristianlığın nəticəsi olan nəcib xalqdır. Məgər nəcib xalq belə hərəkət edə bilərmi? Ölüləri qəbirdən çıxarıb onların qızıl dişlərini çıxartmaq, qəbirüstü daşları sındırıb qonşu ölkələrə satmağa aparmaq, məscidləri dağıtmaq, orada donuz saxlamaq. Biz bütün bunları göstərdik, hərçənd heç nə göstərməyə ehtiyac yox idi, sadəcə, adamların oraya gəlməsi lazım idi ki, özləri baxıb görsünlər”.

Hazırda ölkəmizin artıq dünyada təsdiqlənən reallıqları müstəqil siyasətin uğurla həyata keçirilməsi ilə reallaşıb. Bu zaman cəmiyyətimiz və iqtidar birmənalı şəkildə milli maraqların keşiyində dayanıb. Milli maraqlara, milli dəyərlərə isə nəsildən-nəslə ötürülən mənəvi borc kimi yanaşılıb, eyni zamanda, ölkəmizi daim müstəqil saxlamaq, daim kənar təsirlərdən qorumaq və şərəfli keçmişimizlə hazırda yaşadığımız qürurlu günümüz arasındakı mövcud mənəvi bağları qırmamaq üçün həmin prinsiplər hər zaman diqqət mərkəzində saxlanılıb.

Azərbaycanın yeni reallıqlarının beynəlxalq aləmdə təsdiqlənməsində Vətən müharibəsində respublikamızın ədalətli mövqeyini müdafiə edən, siyasi və mənəvi dəstək göstərən dost və qardaş ölkələr, eləcə də bir çox beynəlxalq təşkilatlar önəmli rol oynayıblar. Bununla da Azərbaycan yeni güc mərkəzlərinə və yeni ittifaqlara qoşulmaqla mövqeyini daha da möhkəmləndirib. Təbii ki, bu yeni reallıq, belə bir mövcud şərait təhlükəsizlik və tərəfdaşlıq müstəvisində maraqların koordinasiya edilməsi və uzlaşdırılmasından irəli gəlib. Məsələn, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ötən il iyun ayında Azərbaycana səfəri çərçivəsində Şuşada Prezident İlham Əliyevlə birgə “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında” Şuşa Bəyannaməsinin, həmçinin Azərbaycan, Türkiyə və Pakistan parlamentləri arasında Bakı Bəyannaməsinin imzalanması da məhz Cənubi Qafqazın sülh regionuna çevrilməsi məqsədi daşıyıb və tarixi hadisəyə çevrilib.

Bu cür xoşməramlı addımlar qalib Azərbaycanın sözünün daha kəsərli olmasını, dost ölkələrin sayının günbəgün artmasını və beynəlxalq hüququn, haqq-ədalətin onun tərəfində dayanmasını reallaşdırıb, respublikamızı artıq regionda sülhün, təhlükəsizliyin, açıq, konstruktiv, bərabərhüquqlu əməkdaşlığın, sözün əsl mənasında, qarantı kimi çıxış edən dövlət kimi tanıdıb.

Prezident İlham Əliyev Vətən müharibəsi ilə ədalətin bərpa olunmasından, parlaq qələbə əldə edilməsindən sonra ordusu və iqtisadiyyatı acınacaqlı duruma düşən Ermənistana vəziyyətdən çıxmağın yeganə yolunu sülh müqaviləsinin bağlanmasında gördüyünü dəfələrlə xatırladıb, Qarabağın təhlükəsizlik, sabitlik və sülh şəraitində inkişafı məsələlərini önə çəkib. Dövlətimizin başçısı bu istiqamətdə göstərilən bütün müsbət səyləri, etimadyaratma tədbirlərini dəstəkləyib, Azərbaycan sülh danışıqları üçün konkret prosesə başlamağa, mümkün sülh sazişini hazırlamağa və bu saziş üçün bütün zəruri elementləri həll etməyə daim hazır olduğunu diqqətə çatdırıb.

Prezident İlham Əliyev postmünaqişə dövründə bölgədə əmin-amanlığın yaradılmasına daim konstruktiv yanaşıb, hər zaman əsas diqqəti Cənubi Qafqazda postmünaqişə vəziyyətinə yönəldərək, Azərbaycanın sülhə, sabitliyə və proqnozlaşdırılmaya sadiqliyini bəyan edib. Ölkə rəhbəri regionda hər hansı yeni müharibə riskinin minimuma endirilməsinə nail olmağa xüsusi önəm verib. Bu, Prezident İlham Əliyevin nüfuzlu dövlət başçıları, beynəlxalq təşkilatların rəhbərləri ilə söhbətlərində də öz aydın ifadəsini tapıb.

Cənubi Qafqazda postmüharibə dövründə Azərbaycanın sülhə, sabitliyə və proqnozlaşdırılmaya sadiqliyi xüsusilə Avropa İttifaqı (Aİ) tərəfindən yüksək səviyyədə dəstəklənib. Bununla bağlı, ilk növbədə, onu qeyd edə bilərik ki, dövlətimizin başçısının Aİ Şurasının prezidenti Şarl Mişellə davamlı görüşləri və apardığı danışıqlar nəticəsində postmüharibə dövründə yeni Brüssel sülh formatı yaradılıb. İlk üçtərəfli görüş keçən il dekabrın 14-də keçirilib, bununla da Prezident İlham Əliyev və Şarl Mişel tərəfindən Brüssel sülh gündəliyinin əsası qoyulub. Bunun davamı olaraq tərəflər arasında intensiv təmaslar aparılıb, telefon danışıqları gerçəkləşdirilib. Cari il aprelin 6-da isə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların başlanılması və bununla bağlı işçi qrupun yaradılması qərara alınıb. Məsələ ilə əlaqədar Azərbaycan və Ermənistan XİN-lərinə müvafiq təlimatlar verilib.

Azərbaycanla Ermənistan arasında sülh razılaşmasında Azərbaycanın ərazi bütövlüyünün şərtləndirilməsi əsas yer tutur. Ümumiyyətlə, sülh razılaşmasının əsas komponentində iki dövlət arasında münasibətlərin normallaşması üçün ölkələrin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması məsələsi, dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi öz aydın ifadəsini tapıb. Bununla bərabər, dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinilməsi qarşıya önəmli vəzifə kimi qoyulub.

Bax, elə bütün bunlara görə də iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində respublikamız tərəfindən atılan addımlara, Ermənistanla sülh müqaviləsi imzalamağa hazır olmağımıza dair ən yüksək səviyyədə edilən bəyanatlara baxmayaraq, ötən müddət ərzində işğalçı tərəf revanşist hərəkətlərdən əl çəkməyib. Yeri gəlmişkən, dövlətimizin başçısı Vətən müharibəsindən sonra Ermənistandan dəfələrlə bu ölkəyə məxsus qanunsuz silahlı dəstənin Azərbaycan ərazisindən çıxarılmasını tələb edib. Prezident İlham Əliyev sonuncu dəfə birgə bəyanatın tələbinə uyğun olaraq, qanunsuz erməni silahlı dəstələrinin ərazilərimizdən çıxarılmadığı və təxribatlar törədildiyi təqdirdə, Azərbaycan tərəfinin müvafiq formada öz təhlükəsizliyini gerçəkləşdirmək üçün ciddi addımlar atacağını bildirib. Lakin Ermənistan bu sərt xəbərdarlıqdan nəticə çıxarmayıb, əvvəlki xarakterinə sadiq qalaraq, təcavüzkar, təxribatçı və işğalçılıq mövqeyini nümayiş etdirib. Nəticədə avqustun 3-də Laçın rayonu istiqamətində Azərbaycan ordu bölmələrinin mövqelərinin erməni separatçıları tərəfindən intensiv atəşə tutulması nəticəsində müddətli hərbi xidmətdə olan əsgər Anar Kazımov şəhid olub.

Xatırladaq ki, Ermənistanın sonuncu təxribatına cavab olaraq, Azərbaycanın keçirdiyi “Qisas” əməliyyatı çərçivəsində düşmən, sözün əsl mənasında, növbəti ağır zərbə aldı. Azərbaycan Ordusu “Qisas” əməliyyatı ilə Prezident İlham Əliyevin sözü ilə əməli arasında vəhdət olduğunu bir daha işğalçı Ermənistanın diqqətinə çatdırdı, düşmənin silahlı dəstələrinin ərazilərimizdən çıxarılmadığı və təxribatlar törətdiyi halda cəzalandırılacağı fikrinin təsdiqlədiyini sübuta yetirdi.

Prezident, Ali Baş Komandan İlham Əliyev Basqal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibəsində söylədiyi kimi, “Qisas” əməliyyatı bir daha Azərbaycanın gücünü, qüdrətini göstərdi. “Dəfələrlə Ermənistana xəbərdarlıq etmişdik ki, odla oynamasınlar, özlərini yaxşı aparsınlar, yeni reallıqları qəbul etsinlər və hərbi təxribatlara əl atmasınlar. Əfsuslar olsun ki, bu dəfə də onlara dərs verməli olduq”, - deyən dövlətimizin başçısı əgər yenə də buna oxşar təxribat törədilərsə, cavabın da eyni olacağını bildirdi. Ölkə rəhbəri, eyni zamanda, Azərbaycanın öz ərazisində istənilən əməliyyatı həyata keçirmək hüququna sahib olduğunu diqqətə çatdırdı.

Ümumiyyətlə, erməni faşizminə qarşı ciddi cəza tədbiri olan və bununla şəhidimizin qisası alınan “Qisas” əməliyyatından sonra işğalçı bir daha anlamalıdır ki, yenə də hərbi təxribat törədərsə, daha sərt şəkildə cəzalandırılacaq.

Təəssüf ki, İkinci Qarabağ müharibəsindən ötən iki ilə yaxın bir müddətdə Ermənistan Qarabağda yaranan reallıqları dərk edə bilmir, Azərbaycanın qəsbkarlığa qarşı bundan sonra da belə qətiyyətlə mübarizə aparacağını başa düşmür.

Burada onu da xatırladaq ki, bu gün Azərbaycanın sülh təklifi Ermənistan üçün son şansdır. Təbii ki, dövlətimizin başçısının bu kimi bəyanatları, xəbərdarlıqları bir daha ölkəmizin 30 il əvvəlki Azərbaycan olmadığını təsdiqləyir.

Hazırda dünya güclərinin Qarabağda yaranan yeni reallıqları qəbul etmələri, diktə edən tərəfin qalib Azərbaycan olması faktını dəstəkləmələri həqiqətini Ermənistan da anlamalı və işğalçı sülh təşəbbüslərini gerçəkləşdirməyə öz töhfəsini verməlidir. Əks təqdirdə, dövlətimizin başçısının dəfələrlə bəyan etdiyi kimi, “Dəmir yumruq” yerindədir.

Yeri gəlmişkən, Prezident İlham Əliyev Basqal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibəsində bu bəyanatı da səsləndirdi ki, Laçın şəhərindən, Zabux və Sus kəndlərindən qanunsuz məskunlaşmış ermənilər çıxarılmalıdır. Bu, əslində, hərbi cinayətdir, Cenevrə konversiyalarının qaydalarına zidddir. Düşmən ölkənin işğal edilən torpaqlarda qanunsuz məskunlaşma aparması beynəlxalq hüquqla ziddiyyət təşkil edir.

Sözügedən müsahibədə dövlətimizin başçısı tərəfindən “Bu gün Ermənistanla Azərbaycan arasında gedən normallaşma prosesində Qarabağ mövzusu yoxdur” fikirləri də Ermənistana ciddi mesaj kimi diqqət çəkib. Çünki Qarabağ münaqişəsi tarixə qovuşub. Bununla belə danışıqlar masasında hansı bir statusdan söhbət getməyə ehtiyac qalmayıb və Qarabağ ermənilərinə heç bir status verilməyəcəyi artıq qətiləşdirilib. Onların da digər Azərbaycan vətəndaşları kimi qanunlarımız çərçivəsində yaşamaları prioritet istiqamət kimi nəzərdə tutulub.

Burada söhbət Qarabağda yaşayan ermənilərin hüquqları və təhlükəsizliyindən getdiyi bir məqamda xatırladaq ki, dövlətimizin irəli sürdüyü sülh təklifində onların hüquqlarının və təhlükəsizliyinin Azərbaycan dövləti tərəfindən təmin ediləcəyi xüsusi nəzərə çarpdırılıb.

Ümumiyyətlə, münasibətlərdə yeni səhifənin açılması Ermənistanın sülh danışıqlarına başlanması istiqamətində atacağı addıma bağlıdır. Prinsip etibarilə Ermənistanın yeni reallıqla barışması labüddür, çünki başqa yolu yoxdur. Qarabağda yaşayan ermənilərin gələcəyi ancaq Azərbaycan cəmiyyətinə inteqrasiyadan keçir. Bundan əlavə, Ermənistan Zəngəzur dəhlizi ilə bağlı məsələni uzatmağa son qoymalı və konstruktiv mövqe nümayiş etdirməlidir. Nikol Paşinyan hakimiyyətinin başqa alternativi yoxdur.

*Vaqif BAYRAMOV,*
*“Xalq qəzeti”*